**G.X.ƏHMƏDOVA**
*doktorant*
*e-mail: gulnaz.ahmedova.84@mail.ru*
**:https://orcid.org/0009-0004-5828-0495**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

**10.62021/0026-0028.2025.4.447**

# İNNOVATİV TƏLİM ŞƏRAİTİNDƏ İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN İNTELLEKTUAL İNKİŞAFININ SƏMƏRƏLİLİYİ

***Xülasə***. *Məqalədə ibtidai sinif şagirdlərində intellektin formalaşması və inkişafı prosesi geniş şəkildə araşdırılmışdır. İnnovativ təlim anlayışı və onun müxtəlif növləri izah edilmiş, bu yaş dövründə təfəkkürün inkişafına təsir edən amillər və onların əhəmiyyəti vurğulanmışdır. Eyni zamanda, müəllimlərin və sosial mühitin roluna xüsusi diqqət yetirilmiş, tədris prosesində istifadə edilən müasir metodlar və onların effektivliyi nəzərdən keçirilmişdir. Məqalədə həmçinin şagirdlərin məntiqi, kreativ və tənqidi təfəkkür bacarıqlarını artırmaq üçün müxtəlif yanaşmalar və üsullar təqdim olunmuşdur. Müasir tədris yanaşmaları şagirdlərin idrak potensialını maksimum səviyyədə inkişaf etdirməyə imkan verir. İbtidai təhsil şagirdlərin intellektual və psixoloji inkişafında mühüm rol oynayır. Bu dövrdə təfəkkürün formalaşması gələcək akademik uğurların təməlini qoyur. Məqalədə ibtidai sinif şagirdlərinin təfəkkürünün inkişafına təsir edən amillər, metodlar və yanaşmalar araşdırılacaq. Dünya təhsilinə inteqrasiya etdiyimiz bir zamanda təhsilə innovativ yanaşmalar, təhsil prosesində şəxsiyyətin formalaşmasının yeni imkan və yollarının axtarışı, şagirdlərə informasiya verməklə yanaşı, onları birgə axtarışa, əməkdaşlığa sövq edən özünüifadəsi və özünütəsdiqi üçün əlverişli şərait yaradan, interaktiv mühitin yaradılması aktuallıq kəsb edir.*

***Açar sözlər:*** *innovasiya, intellektual inkişaf, təlim-tədris prosesi*

İbtidai təhsil təhsil sisteminin ən önəmli mərhələlərindən biridir. Təhsil sisteminin düzgün qurulmasında bilavasitə məktəbəqədər və ibtidai təhsilin rolu əhəmiyyətli dərəcədədir. Uşaqlarda təhsilin sistemli verilməsinin və fasiləsizliyinin təmin edilməsi üçün ibtidai təhsil mərhələsində verilən baza biliklərin xüsusi əhəmiyyəti vardır. Son illər aparılan təhsil islahatları təhsilin məzmun, forma və strukturunda xeyli dəyişikliklər yaradıb.

İnnovasiya dedikdə, müxtəlif yeniliklərin təlim-tərbiyənin məqsəd, məzmun, metod və formalarına tətbiqi, təhsilin iqtisadiyyatı, təşkili və idarə edilməsində pedaqoq və təhsilalanın birgə fəaliyyətlərinin yeni biliklər əsasında təşkili nəzərdə tutulur. Müasir təhsildə gedən qlobal proseslərin səciyyəvi xüsusiyyəti onun fasiləsiz modernləşməsidir. Təhsildə modernləşmənin əsas məqsədi hazırda reallaşan kütləvi pedaqoji şəraitində yüksək keyfiyyətə nail olmaqdır. İnkişaf etmiş ölkələrin təhsil sistemləri qlobal tendensiyalara uyğun inkişaf edir. Qlobal tendensiyalar isə dünyanın yeni inkişaf səviyyəsi ilə müəyyən edilir. Bu məqsədlə bir çox ölkələrdə müvafiq təhsil strategiyaları və inkişaf proqramları hazırlanmış, hazırda icra edilməkdədirlər. Məlumdur ki, təhsildə kurikulum islahatının əsas funksiyası olan innovativ təlim prosesi ibtidai sinif şagirdlərinin intellektual fəallığına görə daha səmərəli qurulmasıdır. Təlim strategiyasına müəllim və şagirdlərin fəaliyyət mexanizmlərini eyni istiqamətdə birləşdirən, bu məqsədə çatmaq yolunda istifadə olunan forma, metod, üsul və vasitələrin məcmusudur [3].

Müvafiq innovasiyaların tətbiqi pedaqoji prosesdə ibtidai sinif şagirdlərinin şəxsiyyətinin yaradıcılıq potensialını aşkar edib üzə çıxarmağa, onların intellektual fəaliyyətinin inkişafına təminat verir. Onun nəticəsidir ki, ibtidai siniflərdə bir çox fənlərin tədrisi prosesində şagirdlər təhsil proqramında standarta uyğun müstəqil olaraq düşünən, mühakimə yürütməyi ba-

caran, kollektiv və qrupda idrak fəaliyyəti göstərən, öz hərəkətlərinin nəticəsini götür-qoy edən, anında doğru qərarlar qəbul edən, ağlın çevikliyi, tənqidiliyi nümayiş edirlər. Bununla da təfəkkür keyfiyyətlərinə malik şüurlu vətəndaş yetişdirilir.

İbtidai siniflərdə şagirdlərin intellektual inkişafını təmin edən iki fəaliyyət növü təşkil edir. Onlardan birincisi budur ki, hər bir uşaq bəşəriyyətin əldə etdiyi təcrübəni mənimsədikcə müasir mədəniyyəti də öyrənməklə inkişaf edir. Cəmiyyətdə yaşamaq üçün uşağa lazım olan bilik və bacarıqların mənimsənilməsinə yönəldilmiş tədris fəaliyyəti də bu prosesin bünövrəsidir [7].

İkincisi odur ki, hər bir uşaq inkişaf prosesində yaradıcılıq fəaliyyəti sahəsində müstəqil olaraq öz imkanlarını gerçəkləşdirir. Yaradıcılıq artıq məlum biliklərin mənimsənilməsi məqsədi daşımır. O, şagirddə müstəqil fəaliyyət göstərmək, öz düşüncələrini reallaşdırmaq, yeniliklər yaratmağa yönəlmiş şəxsi ideyalarını gerçəkləşdirmək imkanlarını üzə çıxarır.

Həmin fəaliyyət növlərini həyata keçirən ibtidai sinif şagirdləri müxtəlif məsələləri müxtəlif məqsədlərlə həll edirlər. Onlar innovativ təlim fəaliyyəti zamanı müxtəlif bacarığa yiyələnmək, bu və ya digər qaydanı mənimsəmək üçün tədris-təlim məsələləri həll edilir. Buna görə də, tədris fəaliyyəti prosesində ibtidai təhsil qabiliyyəti formalaşdırılırsa, yaradıcılıq fəaliyyəti prosesində axtarmaq və məsələnin yeni həllini tapmaq bacarığı, tələb olunan nəticəni əldə etməyin standart üsulları, təklif olunan vəziyyətlərin müzakirəsinə yeni münasibətlər formalaşdırılır.

Müasir ibtidai məktəbin vəziyyətini belə hesab etmək olar. Bir tərəfdən ibtidai sinif şagirdlərinin intellektinin, ilk növbədə yaradıcı təfəkkürün inkişafına bilik və bacarıqların mənimsənilməsinə yönədilmiş fəaliyyətə və diqər tərəfdən, uşağın şəxsiyyətini yüksəldən, özünə münasibəti dəyişdirən yeni tipli məsələlərin, inkişafetdirici məsələlərinin verilməsi mühüm rol oynayır.

İbtidai təhsil müstəvisində müvəffəqiyyətlər ibtidai sinifdə şagirdlər arasındakı qarşılıqlı münasibətlərə əhəmiyyətli, bəzən hətta həlledici təsir göstərir ki, buna əksər hallarda müəllimlərin özləri təkan verirlər. Şagirdlər yaxşı düşünməyi bacaran şagirdlərə nisbətən yaxşı və əla oxuyan şagirdlərə daha şox hörmət edə bilərlər. Düşüncəli uşaqlar məktəbdə sıxıntı keçirdiklərinə görə dərsə maraq göstərməyəndə və zəif oxuyanda bu daha çox gözə çarpır. Belə vəziyyət onların xarakterinin formalaşmasına mənfi təsir göstərir. Lakin, belə demək də düzgün olmaz ki, müasir ibtidai məktəb proqramında axtarış xarakterli çalışmalar ümumiyyətlə yox dərəcəsindədir. Doğrudur, riyaziyyət və dil fənləri dərsliklərində qeyri-standart adlana biləcək məsələlər vardır və onların həlli üçün uşaqlardan intellektual təşəbbüs və düşüncə tələb edir. Lakin bu cür məsələləri heç də bütün uşaqlar deyil, ən qabiliyyətli şagirdlər həll edə bilirlər, ikincisi isə həmin məsələlərin həlli məcburi xarakter daşımır.

Zənnimizcə, hal-hazırda aşağı sinif şagirdlərin tədris həyatında bilik, bacarıq aşılayan fəaliyyət növü ilə axtarışa sövq edən fəaliyyət növü arasındakı nisbəti dəyişdirmək üçün əlverişli şərait mövcüddur. Bunun mənası ondadır ki, ibtidai siniflərdə həm zəif, həm də güclü intellekt hazırlığına malik olan uşaqların hamısının iştirak edə biləcəyi müntəzəm məşğələlər təşkil edilsin və həmin məşğələlərdə onlar tədris proqramı ilə əlaqəsi olmayan, axtarış və yaradıcı münasibət tələb edən müxtəlif tipli məsələləri həll etsinlər. Bu məşğələlərin tədris proqramı ilə əlaqədər olmaması olduqca mühüm tələbdir. Ona görə ki, hansısa tədris materialını mənimsəmədiyinə görə eyni tipli pis həll edən uşaq bu zaman ondan axtarış fəallığı və düşüncə tələb edən qeyri-tədris məsələlərini həll edərkən müvəffəqiyyətin dadını duyar və özünə inamı artır [1].

Hazırda innovativ təlim mühitində təhsilalan ibtidai sinif şagirdilə qarşılıqlı əməkdaşlıq şəraitində və onların iştirakı ilə bilik, bacarıq və vərdişləri müstəqil mənimsəmələrinə şərait yaradır. Yəni uşaqlara "öyrənməyi öyrədir". Demək innovativ tədris, ibtidai sinif şagirdlərinin bilik, bacarıq və vərdişlərin mənimsənilməsində idraki fəaliyyətlərinin öyrədən tərəfindən idarə edilməsi prosesidir.

İnnovativ təlim prosesi öyrənmənin intellektual xarakterindən, mənimsəniləcək təlim materialının səmərəliliyindən, müəllimin pedaqoji ustalığı və təcrübəsindən, şəxsi qabiliyyət

və metodikasından, öyrənənin psixi inkişafının fərdi xüsusiyyətlərindən (əqli, emosional, iradi), maraq dairəsi və öyrənməyə münasibətindən asılıdır[5].

Təlim materialının mənimsənilməsinin əsas şərti şagirdlərdə öyrənməyə müsbət münasibətin formalaşdırılmasıdır. İnnovativ tədris prosesi ibtidai sinif şagirdlərinin təbiətən malik olduğu öyrənmək meyilləri, həvəsi ilə əlaqələndirilərsə, bu, intellektual inkişafın daha səmərəli olmasına yardımçı olar. Bilmək hələ başlanğıcdır. Onu təcrübəyə tətbiq etmək indiki şəraitdə əsasdır. Bu zaman ibtidai sinif şagirdlərinin müstəqil fəaliyyətində informasiyaların təhlil və tərkibinə, qərarlar qəbul etməsinə, həyata keçirməsinə hazır olması da vacibdir. Müəllimin mövqeyi – öyrətmək, fənnə həvəs, maraq oyatmaqdır. O, informasiya mənbəyindən faydalanaraq, onun təşkilatçısına, idraki fəaliyyətə təhrik edən mənəvi və zehni impuls verir.

Bu baxımdan Respublikada aparılan islahatlar innovativ xarakter daşıyır. Yeni tədris planları, təlim texnologiyalarından, İKT-dən istifadə edilməsi, qiymətləndirmənin yeni meyarları, elektron məktəb layihələri və s. bunlar hamısı, bir innovasiya kimi məktəblərdə tətbiq edilir. İnnovasiya bir pedaqoji fəaliyyət olaraq təhsilə yenilik gətirir. Pedaqoji prosesinin təkmilləşdirilməsinə xidmət edir.

Pedaqogikada innovasiya iki yanaşmadan ibarət olub araşdırılır:

– *qabaqcıl pedaqoji təcrübənin nəticəsi;* Burada adətən innovasiya, yenilik dövründən sonra uzun mübarizələrin nəticəsi kimi cəmiyyət tərəfindən tətbiq edilməsi üçün bir model olaraq qəbul olunur ( bunun əsasında sonralar yeni pedaqoji texnologiyalar yaranmışdır).

– *pedaqoji ustalıq və şəxsi yenilik.*

Bu yanaşmada isə innovasiya yenilik kimi qəbul olunmayaraq birinciyə arxalanır.

İnnovasiya pedaqogikası təlim-tərbiyənin paradiqmalarını dəyişməyi tələb edir. Paradiqma nəzəri və praktik problemlərin həllinin əsasına qoyulan yeni nəzəriyyədir. İnnovatorlar belə hesab edirlər: “Klassik pedaqoji nəzəriyyə köhnəlmişdir. Yeni şəraitdə indiki nəsillərə o nəzəriyyə əsasında təhsil-tərbiyə vermək mümkünsüzdür. Müasir pedaqogika praktikada o qədər də dəyişdirici təsir göstərə bilmir” [8].

İntellektual fəallığı yaradan təfəkkürün inkişafına yönəlmiş təlim texnologiyasına konstruktiv təlim deyilir. Bu texnologiya ilə dərs keçiriləndə müəllim ibtidai sinif şagirdlərinin öz biliklərinə və təcrübələrinə istinad edərək yeni biliklərini yaratmağa şərait yaradır. Əgər fəal təlimdə şagirdlər bilik axtarışındadırlarsa, konstruktiv təlimdə onlar interaktiv fəallıqda olaraq təfəkkür əməliyyatları aparırlar.

Təhsildə strateji yanaşma digər fəaliyyət sahələrinə nisbətən daha vacibdir.

Müasir zamanda innovasiyaların yaranmasına səbəb olan tendensiyalara daxildir:

1. tədris prosesinin humanistləşməsi;
2. uşaqların təhsilləri və gənc nəslin inkişafı keyfiyyətinə verilən yüksək tələblər;
3. mədəni-mənəvi dəyərlərə yönəlmə;
4. təhsil müəssisələri arasında rəqabətlilik münasibətləri.

Hər bir innovasiya prosesinin obyekti təhsilalanlardır. Tədqiqatçıların və təhsil müəssisəsi rəhbərlərinin əsas vəzifəsi təhsilin proqnozlaşdırılan nəticələrinə maksimum yaxınlaşmaqdır. Ona görə təhsil müəssisəsində tətbiq edilən innovasiya prosesi idarə edilməlidir.

Pedaqoq və psixoloqların əksəriyyəti təlim motivasiyasının aşağıdakı 5 (beş) səviyyəsini qeyd edirlər.

Birinci səviyyə – məktəbli motivasiyasının ən yüksək səviyyəsi, öyrənmə fəallığıdır. Bu tip uşaqların idraki motivləri, məktəbin irəli sürdüyü bütün tələbləri uğurla yerinə yetirmək cəhdi var. Şagirdlər müəllimlərin verdikləri tapşırıqları dəqiqliklə, vicdanla yerinə yetirir, əgər qənaətbəxş qiymət almırlarsa çox məyus olurlar.

İkinci səviyyə – yaxşı məktəbli motivasiyasıdır. Məktəblilər təlim fəaliyyətinin öhdəsindən uğurla gəlirlər.

Üçüncü səviyyə – məktəbə müsbət münasibət var, lakin bu tip uşaqları təlimdənkənar fəaliyyət daha çox maraqlandırır. Bu tip uşaqlar dostları və müəllimlərlə ünsiyyət qurmaq

üçün özlərini məktəbdə yaxşı hiss edir. Onlar özlərini məktəbli kimi hiss etmələrindən, gözəl çantaları, qələmləri, karandaşları, dəftərləri olmaqdan xoşlanırlar. Bu tip uşaqlarda idrak motivləri aşağı səviyyədə olduğu üçün təlim prosesi onları az maraqlandırır.

Dördüncü səviyyə – aşağı məktəb motivasiyasıdır. Bu cür uşaqlar məktəbə həvəssiz gedir, dərslərdən qalmağı üstün tuturlar. Dərslərdə çox vaxt oyun və kənar işlərlə məşğul olurlar. Təlim fəaliyyətində ciddi cətinliklərlə üzləşirlər.

Beşinci səviyyə – məktəbə neqativ münasibətdir. Bu tip məktəblilər təlim fəaliyyətində ciddi çətinliklər qarşısında qalır, həmyaşıdları və müəllimlərlə ünsiyyət qura bilmirlər. Məktəb belə uşaqları "düşmənçilik" mövqeyində qəbul edir [6].

İbtidai sinif şagirdlərinin intellektual inkişafı prosesi müəyyən mərhələlər keçir:
– ideyanın yaranması;
– məqsədin formalaşması;
– yeni ideyanın konkretləşməsi (formalaşması);
– yeniliyin reallaşdırılması və yayılması.

İnnovativ təlimin əsas üstünlüyü ondan ibarətdir ki, şagirdlərin intellektual fəallığını artırır, onları düşündürür, müstəqil qərarlar çıxarmağa yönəldir. İntellektual fəaliyyətinin gedişində ibtidai sinif şagirdlərinin məntiqi, tənqidi, yaradıcı təfəkkürü inkişaf edir. Məntiqi təfəkkür həyatın bütün sahələrində insana lazım olan vərdişdir. Məntiq şagirdlərin təfəkkürünü inkişaf etdirməyə, onların düşünmə qabiliyyətlərini və intellektual səviyyələrini yüksəltməyə, bilik, bacarıq və vərdişlərinin daha məzmunlu və ətraflı formalaşmasına xidmət edir.

***Məqalənin elmi nəticəsi.*** İbtidai təhsil mərhələsində tətbiq olunan müxtəlif interaktiv metodlar – diskussiyalar, problem əsaslı öyrənmə və yaradıcı fəaliyyətlər – şagirdlərdə analitik və məntiqi təfəkkürün inkişafına kömək edir.

***Məqalənin elmi yeniliyi.*** İnnovativ təlim metodlarının tətbiqi təlim prosesində ibtidai sinif şagirdlərinin yaradıcılıq potensialını aşkar edib üzə çıxarmağa, onların intellektual fəaliyyətinin inkişaf etməsinə zəmin yaradan amillərdəndir.

***Məqalənin tətbiqi əhəmiyyəti.*** İntellektual inkişafın səmərəliliyi ibtidai sinif şagirdlərinin akademik və sosial bacarıqlarına birbaşa təsir göstərir.

**Ədəbiyyat:**

1. Abbasov, A. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti /A.Abbasov. –Bakı: Mütərcim, –2015. –232s.
2. Abbasov, Ə. Təhsilin inkişafı üzrə Dövlət Strategiyası: perspektivlər və vəzifələr/Ə.Abbasov, İ.Cavadov, – Bakı: Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzi, – 2015. – 304 s.
3. Abbasov, Ə. Kurikulum islahatı: tədqiqatlar, nəticələr / Ə.Abbasov, İ.Cavadov, –Bakı: Mütərcim, – 2011. – 344 s.
4. Abışov, N. Təhsildə informasiya-kommunikasiya texnologiyaları // – Bakı:Təhsildə İKT, ADPU, – 2010. – s.14-27.
5. Bünyatov, A. Ümumtexniki və təbiət elmlərinin tədrisində multimedia laboratoriya işlərinin layihələşdirilməsi /A.Bünyatov, X.Məmmədov F.Bəxşiyev// Təhsildə İKT, – Bakı, –2010. № 1, –s.116-120
6. Danilov, M. Məktəblilərdə müstəqillik təhsili və öyrənmə prosesində yaradıcı fəaliyyət / M.Danilov. – M: Təhsil, –2008. – 82 s.
7. İlyasov, M.İ. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri / M.İ.İlyasov, – Bakı: Elm və təhsil. – 2018
8. İlyasov, M.İ. Müasir təhsil: ənənədən innovasiyaya / M.İ.İlyasov. – Bakı: Elm və təhsil, – 2021. – 376 s.
9. Mehrabov, A. Müasir təhsilin metodoloji problemləri / A.Mehrabov. – Bakı, – Mütərcim, – 2012. – 162 s.

10. Mərdənov, M. Azərbaycan təhsilinin dünəni, bu günü, sabahı / M.Mərdanov. – Bakı, – Təhsil, – 2006. – 300 s.
11. Valehov, C. Ali təhsildə yeni yanaşmalar // – Bakı:Azərbaycan məktəbi, – 2013. №6, – s.36-42.
12. Zeynalov, Z. Yeni pedaqoji və İKT texnologiyalardan istifadənin təlimin keyfiyyətinə təsiri: tədqiqatlar, nəticələr, təkliflər // Bakı: Azərbaycan Respublikası təhsil İnstitutunun Elmi əsərləri, – 2012. №4, – s.59-61.

**G.X.Ahmadova**

**The Effectiveness of Intellectual Development of Primary School Students in Innovative Learning Conditions**

***Summary***

The article extensively examines the process of formation and development of intelligence in primary school students. The concept of innovative learning and its various types are explained, the factors affecting the development of thinking at this age and their importance are emphasized. At the same time, special attention is paid to the role of teachers and the social environment, modern methods used in the teaching process and their effectiveness are considered. The article also presents various approaches and methods to improve students' logical, creative and critical thinking skills. Modern teaching approaches allow developing students' cognitive potential at the maximum level. Primary education plays an important role in the intellectual and psychological development of students. The formation of thinking during this period lays the foundation for future academic success. The article will examine the factors, methods and approaches affecting the development of thinking of primary school students. As we integrate into world education, innovative approaches to education, the search for new opportunities and ways of personality formation in the educational process, the creation of an interactive environment that creates favorable conditions for self-expression and self-affirmation, which not only provides students with information, but also encourages them to search and cooperate, are becoming increasingly relevant.

***Keywords:*** *innovation, intellectual development, teaching and learning process*

**Г.Х.Ахмедова**

**Эффективность интеллектуального развития учащихся начальной школы в условиях инновационного обучения**

***Резюме***

В статье подробно рассматривается процесс формирования и развития интеллекта у учащихся начальной школы. Раскрывается понятие инновационного обучения и его различные виды, подчёркиваются факторы, влияющие на развитие мышления в этом возрасте, и их значение. Особое внимание уделяется роли учителя и социальной среды, рассматриваются современные методы обучения и их эффективность. В статье также представлены различные подходы и методы развития логического, творческого и критического мышления учащихся. Современные подходы к обучению позволяют максимально развить познавательный потенциал учащихся. Начальное образование играет важную роль в интеллектуальном и психологическом развитии учащихся. Формирование мышления в этот период закладывает основу для будущей успеваемости. В статье рассматриваются факторы, методы и подходы, влияющие на развитие мышления учащихся начальной школы. По мере интеграции в мировое образование всё большую актуальность приобретают инновационные подходы к образованию, поиск новых возможностей и способов формирования личности в образовательном процессе, создание интерактивной среды, создающей благоприятные условия для самовыражения и самоутверждения, которая не только предоставляет обучающимся информацию, но и побуждает их к поиску и сотрудничеству.

***Ключевые слова:*** *инновации, интеллектуальное развитие, учебно-воспитательный процесс*

*Rəyçi: prof. M.İ.İlyasov*

*Redaksiyaya daxil olub: 31.10.2025*